# AZƏRBAYCAN RESPUBLİKASI
# DAXİLİ İŞLƏR NAZİRLİYİ

**16 may 2008-ci il** **ƏMR № 44**

**"Qanunsuz özəl mühafizə fəaliyyətinin qarşısının alınmasına dair "**

Azərbaycan Respublikasının Qeyri - dövlət (özəl) mühafizə fəaliyyəti haqqında Qanununun, DİN-in 22 aprel 2007-ci il tarixli 212 nömrəli əmri ilə təsdiq edilmiş "Qeyri – dövlət (özəl) mühafizə fəaliyyəti sahəsində qarşılıqlı münasibətlərin tənzimlənməsi və bu işə nəzarətin təşkilinə dair" təlimatın tələblərinə əsasən özəl mühafizə fəaliyyəti yalnız xüsusi razılıq (lisenziya) alındıqdan sonra həyata keçirilir.

Lakin daxil olan məlumatlar göstərir ki, ayrı-ayrı hüquqi şəxslər tərəfindən müvafiq qaydalara tam riayət edilmir, respublikanın şəhər və rayonlarında xüsusi razılıq (lisenziya) olmadan obyektlər qorunur, təhlükəsizlik siqnalizasiyası avadanlıqlarının yaxşılaşdırılması, quraşdırılması və istismarı ilə əlaqədar texniki xidmətlər göstərilir. Bundan başqa, prokurorluq, daxili işlər və digər dövlət orqanlarının geyim formalarına, fərqlənmə nişanlarına oxşar uniforma rəmzlərdən istifadə edilməsinə rast gəlinir.

Göstərilənlərlə əlaqədar mövcud qanun pozuntularının qarşısını yerli polis orqanları tərəfindən lazımi tədbirlərin vaxtında görülməsinin vacibliyini nəzərə alaraq,

## TƏLƏB EDİRƏM:

**1.** Xüsusi razılıq (lisenziya) olmadan özəl mühafizə fəaliyyətini həyata keçirən hüquqi şəxslərin müəyyənləşdirilməsi, onların qanunsuz fəaliyyətinin qarşısının alınması üçün müvafiq tədbirlər görülsün.
**2.** Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətini tənzimləyən qanunvericiliklə bağlı maarifləndirmə və izahat işləri aparılsın.
**3.** Lisenziya almış özəl mühafizə müəssisələrinin fəaliyyəti daim nəzarətdə saxlanılsın, dövlət orqanlarının geyim formalarına, fərqlənmə nişanlarına oxşar uniforma rəmzlərdən istifadə edilməsi hallarının aşkarlanması məqsədilə, əməkdaşlar qarşısında konkret vəzifələr qoyulsun. Hər bir fakt

üzrə araşdırmalar aparmaqla təqsirkar şəxslərin qanunvericiliyə uyğun məsuliyyətə cəlb olunması təmin edilsin.
**4.** Qeyri-dövlət (özəl) mühafizə müəssisələri tərəfindən işə götürülən şəxslər barədə üç gün müddətində Nazirliyə məlumat verilməsinə, xüsusi vasitələrin uçotunun qeydiyyatının aparılması və saxlanılması qaydalarına riayət edilməsinə, geyim formasında mühafizə edilən obyektin hüdudlarından kənara çıxanların qarşısının alınmasına nəzarət olunsun.
**5.** Görülən işlərin nəticəsi haqqında hər rübün yekununda Təhlükəsizlik idarəsinə məlumat verilsin.
**6.** Göstərişin icrasına nəzarət Baş Təhlükəsizlik İdarəsinə həvalə edilsin.

**Azərbaycan Respublikası**
**Daxili İşlər naziri**
**polis general- polkovniki:** **Ramil Usubov**